# HISTORICAL SCIENCES

## THE AZERBAIJAN DEMOCRATIC REPUBLIC IN SECRET INTELLIGENCE TELEGRAPHS SENT FROM BAKU TO LONDON

**Suleymanov E.**
**Sadig C.**
*National Aviation Academy*

## BAKIDAN LONDONA GÖNDƏRİLƏN MƏXVİ KƏŞFİYYAT TELEQRAFLARINDA AZƏRBAYCAN XALQ CUMHURİYYƏTİNİN FƏALİYYƏTİ (1918)

**Süleymanov E.**
*Türkiyə Respublikası Gazi Universitetinin Doktorantı və Milli Aviasiya Akademiyasının müəllimi*
**Sadıq C.**
*Milli Aviasiya Akademiyasının tələbəsi.*
https://doi.org/10.5281/zenodo.15220757

**Abstract**

In the article, the establishment of the Azerbaijan People's Republic, which is considered the first parliamentary republic of Azerbaijan, and the military and political issues that took place during this period were extensively researhced. The Azerbaijan Democratic Republic has left deep traces not only in the history of Azerbaijan, but also in the history of the Turkish world with its successful policy and proud steps taken for independence and statehood. As a result of the correct domestic and foreign policy conducted during the period of activity of the Parliament of the Azerbaijan Democratic Republic, it created the basis for the creation of today's independent state of Azerbaijan. In the article, the events that took place during the establishment of the Azerbaijan Democratic Republic were widely covered, the Centrocaspian Dictatorship period was analyzed, and the British plans for Baku were approached from a new angle based on our archival research and the found secret intelligence correspondence between Baku and London.

**Mücərrəd**

Məqalədə Şimali Azərbaycan ilk parlament respublikası sayılan Azərbaycan Xalq Cümhuriyyətinin yaranması, və bu dövrdə baş vermiş hərbi və siyasi məsələlər geniş şəkildə araşdırılmışdır. Azərbaycan Xalq Cümhuriyyəti yürütdüyü uğurlu siyasətlə, müstəqillik və dövlətçilik uğrunda attığı məğrur addımlarla nəinki Azərbycan tarixində, türk dünyası tarixində də dərin izlər qoymuşdur. Azərbaycan Xalq Cümhuriyyətinin Parlamentinin fəaliyyəti dövründə aparılan düzgün daxili və xarici siyasəti nəticəsində bu gün ki müstəqil Azərbaycan dövlətinin yaranmasına zəmin yaratmışdır. Məqalədə Azərbaycan Xalq Cümhuriyyətinin qurulması zamanı baş verən hadisələr geniş şəkildə ələ alınmış, Sentrokaspi Diktaturası dövrü analiz edilmiş və ingilislərin Bakı üçün qurduğu planlara apardığımız arxiv araşdırmalarına və Bakı ilə London arasında keçən tapılmış gizli kəşfiyyat yazışmalarına əsaslanaraq yeni bir bucaqdan yanaşılmışdır. Bu məqalə Londonda saxlanılan arxiv materiallarının ilk dəfə təqdim olunmasıyla elmə yenilik gətirməsiylə xüsusi əhəmiyyət kəsb edir.

**Keywords**: Azerbaijan Democratic Republic, Centrocaspian Dictatorship, Azerbaijan National Council, secret archival correspondences.

**Açar Sözlər:** Azərbaycan Xalq Cümhuriyyəti, Sentrokaspi Diktaturası, Azərbaycan Milli Şurası, İngiltərə Gizli Arxiv Materialları.

Giriş.Müsəlman Şərqində ilk demokratik cümhuriyyətin məhz Azərbaycan torpağında yaranması xalqımızın o dövrdə və o illər ərəfəsində – XIX əsrin sonunda və XX əsrin əvvəllərində milli müstəqillik, azadlıq duyğuları ilə yaşaması ilə bağlıdır. O illərdə xalqımızın qabaqcıl şəxsiyyətləri, mütəfəkkir adamları, ziyalıları xalqımızda milli azadlıq, milli müstəqillik duyğularını gücləndirmiş, milli dirçəliş, milli oyanış əhval-ruhiyyəsi yaymış və bunların hamısı məntiqi olaraq Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasına gətirib çıxarmışdır.(Heydər Əliyev, ümummilli lider) [1].

**Bakıda Centro Caspy (Sentro Kaspi) Dövlətinin (Diktaturasının) Qurulması.** 1917-ci ilin oktyabr ayında Rusiyada bolşeviklərin hakimiyyətə gəlməsi zamanı baş vermiş böyük əhəmiyyətə malik bu vəziyyət İngiltərə başda olmaqla, Qərbi Avropa ölkələrinin yeni siyasi yol izləməsinə səbəb oldu. 1917-ci ilin dekabr ayında İngiltərə və Fransa Bolşeviklərin idarəsi altında olan yeni Rusiyanın güclü mövqe əldə etməsinə qarşı durmaq üçün Rusiyanın cənubunu bölməli idilər. Bu planın doğru şəkildə həyata keçməsi üçün İngiltərə və Fransa arasında imzalanan sazişə əsasən İngilislər Qafqaz bölgələrini tabelik altına almalı idilər. İngilislərin Qafqaz bölgələrində tam hakimiyyət əldə etmək yolunda atacaqları ilk addım Bakını tutmaq idi. İngilislər Bakının yerləşdiyi coğrafi ərazilərdəki təbii yeraltı qaynaqların xüsusilə neft yataqlarının müharibədə ciddi təsir edici amil olabiləcəyini bildiklərindən 1918-ci ilin yanvar ayında general-mayor L.Denstervilin başçılıq ettiyi ordu quruldu. Tiflis şəhərində 1918-ci il fevral ayında Zaqafqaziya ölkələri birləşərək Zaqafqaziya

parlamentini elan ettilər. Lakin həmin tarixlərdə həm ölkə daxili, həm də xarici əlaqələrdə gərgin vəziyyət olduğu üçün Zaqafqaziya parlamenti nəzərdə tutulan şəkildə irəliləyə bilmədi. Bu vəziyyət parlamentin strukturuna da öz təsirini göstərərək, parlamentin gürcü nümayəndələrinin parlamentdən ayrılmasına gətirib çıxartdı. Parlamentin Azərbaycan nümayəndiliyi yaranmış gərgin vəziyyətdən çıxış yolu olaraq çox böyük bir qərar qəbul edərək Azərbaycanın idarə edilməsi üçün müvəqqəti Milli Şuranın qurulması qərarını aldı. Şuraya M.Seyidov, H.Ağayev sədr müavini olaraq, M.Ə.Rəsulzadə sədr olaraq fəaliyyətlərinə başladılar. Daha sonra Milli Şuranın daxili strukturu genişləndirilərək 9 nəfərdən ibarət icra edici orqanı quruldu. Milli Şuranın ilk iclasında aparılan müzakirələr nəticəsində Azərbaycanın müstəqil Respublika olaraq öz istiqlaliyyətini elan etməsi ilə əlaqədar ortaq qərar qəbul edildi və 6 bənddən ibarət istiqlaliyyət bəyannaməsi hazırlandı [2].

**Rəsulzadə rəhbərliyində Azərbaycan Xalq Cumhuriyyəti və Milli Şuranın yaradılması.** 1918-ci ilin 28 Mayında M.Ə.Rəsulzadənin sədr seçildiyi Azərbaycan Milli Şurasının qəbul etdiyi 6 maddəlik "İstiqlal bəyannaməsi":

1. Bu gündən etibarən Azərbaycan xalqları suveren hüquqlara malikdirlər, Şərqi və Cənubi Zaqafqaziyadan ibarət olan Azərbaycan tam hüquqlu müstəqil dövlətdir.
2. Müstəqil Azərbaycanın siyasi quruluş forması Xalq Cümhuriyyətidir.
3. Azərbaycan Xalq Cümhuriyyəti bütün millətlər, xüsusilə qonşu xalqlar və dövlətlərlə mehriban qonşuluq münasibətləri yaratmağa çalışır.
4. Azərbaycan Xalq Cümhuriyyəti öz sərhədləri daxilində milliyyətindən, dinindən, sosial vəziyyəti və cinsindən asılı olmayaraq, bütün vətəndaşlara vətəndaşlıq və siyasi hüquqlar təmin edir.
5. Azərbaycan Xalq Cümhuriyyəti öz ərazisi daxilində yaşayan bütün millətlərə azad inkişafı üçün geniş imkanlar verir.
6. Müəssislər Məclisi çağırılana qədər bütün Azərbaycanın idarəsi başında xalq seçkiləri ilə seçilmiş Milli Şura və Milli Məclis qarşısında məsuliyyət daşıyan Müvəqqəti Hökümət durur (Sərəncam, 16 may 2017-ci il).

**Azərbaycan Xalq Cumhuriyyəti I. Nazirlər Kabineti.** İstiqlal bəyannaməsi elan edildikdən sonra Milli Şura F.X.Xoyskiyə hökumətin yaradılmasını tapşırdı. Azərbaycanın ilk müvəqqəti hökuməti belə tərkibdə təqdim edildi:

F.X.Xoyski - Nazirlər Şurasının sədri, Daxili işlər naziri; Xosrovpaşa bəy Sultanov - Hərbi nazir;

N.Yusifbəyli - Xalq maarifı və Maliyyə naziri; M.H.Hacinski - Xarici işlər naziri; X.B.Məlikaslanov - poçt, teleqraf və yollar naziri;

Ə.Şeyxülislamov - Əkinçilik və əmək naziri; X.Xasməmmədov - Ədliyyə naziri;

M.Y.Cəfərov - Ticarət və sənaye naziri;

Camo Hacinski Dövlət nəzarəti naziri [3].

Yekun olaraq Tiflis şəhərində qəbul olunmuş müvafiq qərar əsasında Azərbaycan Xalq Cümhuriyyəti qurulsada, Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin təşkili reallaşmamışdır.

1918-ci il mart ayında İngilislərin Bakını idarələri altına almaq üçün attıqları addımlardan biri də Şimali İrandan çəkilən rus kazak dəstələrinin idarəedicisi L.Biçeraxovla hərbi əməkdaşlığın qurulması idi. Bu əməkdaşlığa görə L.Biçeraxov İngilis hərbi komandanlarının əmrlərini yerinə yetirməli və bu icraat zamanı ordunun ehtiyac duyduğu maliyyəni İngilislər təmin etməli idilər. 1918-ci il 16 iyun tarixində Azərbaycan Xalq Cümhuriyyəti Tiflisdən Gəncə şəhərinə köçürülmüşdür. Daha sonra sentyabrın 17-dən 1920-ci il aprelin 28-dək Bakıda fəaliyyət göstərmişdir [4].

**Bakıda L.Denstervilin rəhbərlik idarəsi.**İngilis höküməti bolşeviklərin daşnaklarla olan birliyinin gələcəkdə onlar üçün gərgin vəziyyətlər yarada biləcəyinə qarşı olaraq general-mayor L.Denstervilin idarəsi ilə ingilis hərbi ordularının şəhərə daxil olması planlaşdırıldı. Fəqət bu gedişatın davam edə bilməsi üçün Xəzər hərbi donanmasının qurulması əhəmiyyət kəsb edirdi. Bunu etmək üçün ingilis hököməti bolşevik və daşnaklarla tərəfdaşlıq etməli idilər. 1918-ci il iyun ayının 27-sindən iyul ayının 1-inə qədər Qafqaz İslam Ordusu bolşevik-daşnak ordularının Gəncə şəhərinə ettikləri hücumun qarşısın almaqla bərabər, Bakı şəhərinə doğru bir sıra hərbi qalibiyyətlərində qazanılmasına nail oldu. Yaranmış bu vəziyyətdə L.Biçeraxov hərbi qoşunlarını Xəzər dənizi vasitəsi ilə iyul ayının 5-də Ələt şəhərinə doğru yönləndirdi. Bu döyüş zamanı cəbhə xəttində ağır vəziyyətlər yaranmışdı, L.Biçeraxov döyüşdə iştirak etməməyə qərara gəldi. İyul ayının sonlarına qədər L.Biçeraxov öz qoşunlarını cəbhədə ağır vəziyyətlər olmasına rəğmən geri çəkmədi. Lakin iyul ayının sonlarında artıq cəbhədə artan gərginlik L.Biçeraxovu qoşunlarını Şimala doğru yönləndirməyə vadar etti. İyul ayının 25-i yaranmış bir sıra hərbi və siyasi gərgin vəziyyətlər səbəbi ilə Bakı Sovetinin iclası keçirildi. S.Şaumyan yaranmış ağır vəziyyət haqqında ettiyi məruzəsində ingilis hököməti ordularının Bakıya göndərilmısi təklifinə etirazını bildirdi. Gərgin müzakirələrin nəticəsi olaraq ingilis qüvvələrinin Bakıya dəvət olunması üzrə qərar qəbul edildi. Bolşeviklər mövcud situasiyada hakimiyyətdən çəkildilər və S.Şaumyan istefa verdi [5].

**Bakıda 26.Bakı Komissarının İngilislər tərəfindən devrilməsi.** S.Şaumyanın istefasından sonra 1918-ci il avqustun 1-də Sentrokaspi Diktaturası və Fəhlə, Əsgər Deputatları Sovetinin Müvəqqəti İcra Komitəsinin birgə hököməti təşkil edildi. Sentrokaspi Dikataturasının idarəsi zamanı əsas məqsədi İngilislərin Bakıya köçürmək və burada olan qüvvələri gücləndirmək idi. İngilislərin bir digər əsas məqsədi isə türklərin əlaqələr yaratmaq məqsədi ilə Bakıya və eləcədə Şərq ölkələrinə yürüyüşlərinə mane olmaq və bu hədəfin yerinə yetirilməsinə qarşı çıxmaq idi. Türklərə qarşı Bakıya ingilis qoşunları göndərilirdi. Lakin göndərilən orduların sayının az olması səbəbi ilə şəhərin xristian əhalisini təşvişə saldı. Bu məsələ ciddi gərginlik yarada biləcəyindən əhalini sakitləşdirmək üçün həqiqətdə öz əksini tapmayan məlumatlarla böyük orduların Bakıya gələcəyini və Sentrokaspi

Diktaturasının hərbi donanmasını gücləndirəcəyini xəbərini yaydılar. Bu real olmayan böyük orduların Bakıya gələcəyi haqqındakı məlumatların şayiə xarakteri daşıdığını, Bakını işğal edən hökümətin hərbi gücü və dəstəyinin az olduğunu anlayan İslam Ordusu Bakını azad etmək üçün hərbi əməliyyatlar aparmağa başladı. Bakı Kommunasının dağılmasından sonra dəstəksiz qalan Sentrokaspi Diktaturasına Moskvadan Bakını İslam Ordusuna qarşı qorumaq üçün hərbi dəstək yardımı təklifi gəldi [6].

Lakin Sentrokaspi Diktataturası İngilislərin onlara bildirdiyi göndəriləcək böyük yardımın olacağına ümid edərək Moskvanın bu təklifini qəbul etmədilər. Nəticədə İngilislər tərəfindən göndərilən hərbi donanma gözlənilən hərbi yardımdan kəskin fərqləndiyi üçün Sentrokaspi Diktaturası çıxılmaz vəziyyətdə qaldı. Sentrokaspiçilər bu ağır vəziyyətdə müdafiə xəttinə təcili olaraq dəstək istədilər, amma bu reallaşmadı. Bunu görən general-mayor L.Denstervil Bakıdan çəkilməyi təklif etti. Lakin bu təklifə də müsbət cavab verilmədi. Müharibənin eşiyində olan ingilislərə 1918-ci ilin sentyabr ayının 15-də Azərbaycan-Türkiyə Ordusu tərəfindən son hərbi əməliyyat aparılaraq, general-mayor L.Denstervilin Bakıdan çəkilməyə məcbur oldu, çünki əks təqdirdə ingilislər Azərbaycan-Türkiyə Ordusu tərəfindən məğlub ediləcəkdir. Yekun olaraq ingilislərin Qafqaz bölgələrinə o cümlədən Bakıya hakim olmaq üçün qurduğu planlar baş tutmadı və nəticədə son qalan 70 zabit və 800 əsgəri ilə general-mayor L.Denstervil Bakını tərk etti [4,6].

Baş vermiş hadisələri, və ingilislərin Bakını ələ keçirmək üçün icra ettiyi planları, apardığımız arxiv araşdırmalarında tapdığımız gizli yazışmalarda da görə bilərik. Aşağıdakı sənədlərin əldə edilməsi üçün Böyük Britaniya Krallığı Milli Hökümət Arxivləri ilə elektron yazışmalar aparılmış və arxivdən təmin olunan bu məxvi materiallar araşdırılaraq tərcümə edilmiştir:

**İngilis Məxvi Ordu Bürosunun Bakıdan Londona göndərdiyi, tam məxvi sənədlər.** Bu Sənəd Britaniya Hökümətinin mülkiyyətidir.

TAM MƏXVİDİR

AZƏRBAYCAN HAQQINDA QEYDLƏR

Qeyd– Bu materiallar Türkiyə ilə atəşkəs imzalanmadan əvvəl yazılmışdır. (Şəkil.1.və Şəkil.2).

1. May ayının sonunda Birləşmiş Zaqafqaziya Hökuməti dağıldıqda, tatarlar Bakının işğalından əvvəl Elizavetopolda müvəqqəti paytaxtı olan müstəqil bir respublika elan etdilər. İddia edilən dəqiq ərazi məlum deyil, lakin o, mütləq Yelizavetopol və Bakı əyalətlərini, ehtimal ki, İrəvanın cənub-şərq hissəsini və bəlkə də Dağıstan və Cənubi Azərbaycanı əhatə edirdi. Lakin bu əlavə iddialar Konstantinopoldakı (İstanbuldakı) Tatar nümayəndə heyəti tərəfindən dəstəklənməmiş və tatar olmayan müsəlman (sünni) olan dağıstanlılar Qafqaz dağlılarının birliyinə mənsubdurlar və görünür, onların Azərbaycana daxil edilməsi məsələsində bölünürlər. Fars Azərbaycanındakı tatarların yeni dövlətə daxil olmaq istəyinə dair heç bir dəlil yoxdur. Tanınmış Panturan Rəsulzadə, Azərbaycan Milli Məclisinin sədri və Konstantinopoldakı nümayəndə heyətinin üzvü, görünür, hökumət başçısı Xoyski xanla Yeni Azərbaycan dövlətinin siyasətinin rəhbərliyində əsas təsiri bölüşür. Rəsulzadə Musavat partiyasının (son dərəcə Türk tərəfdarı) qurucusu və lideridir, fars İnqilabı dövründə Tehranda çalışmış və bu səbəbdən İran demokratları ilə çoxsaylı əlaqələri olduğu düşünülməkdədir.

2. Türklər 1918-ci ilin iyununda Azərbaycana doğru Bakıya doğru irəlilədilər və iyulun sonuna qədər yeni respublika ərazisinin çox hissəsini işğal etdilər. Almaniya o zaman Türkiyənin (Osmanlının) Azərbaycanın faktiki suvereni kimi mövqeyini qəbul etdi, lakin o, heç vaxt onu dövlət kimi tanımadı və bu barədə heç bir qeydin olmaması və avqustun 27-də Rusiya-Almaniya əlavə müqaviləsində Bakının Rusiyaya təhvil verilməsi Türklərin və Tatarların yüksək etirazlarına səbəb oldu.

3. İyul ayından başlayaraq, Ənvərin qardaşı Nuri bəy(Paşa) Yelizavetopolda (Gəncədə) diktator səlahiyyətləri ilə təyin olundu və gördüyü sərt tədbirlər asayişin qorunmasında uğurlu görünsə də, yerli əhalinin böyük narazılığına səbəb oldu. O, həmçinin Tatar Korpusunun yaradılması və hazırlanması üçün təzyiq göstərdi. Bu vəziyyəti Nurinin (Paşanın) Bakıya qarşı hərbi əməliyyatları ilə bağlı olmayan bəzi siyasi ambisiyaları ilə bağlı qeyd etmək lazımdır. Sentyabrın 15-də bu sonuncu döyüşün uğurla başa çatması Azərbaycana ən çox arzuladığı mükafatı gətirdi və Azərbaycan hökuməti Yelizavetopoldan dərhal oraya köçdü.

4. Lakin sentyabrın 23-də Almanlar Berlindəki Tatarlardan Türk qoşunlarının Azərbaycandan çıxarılması və Almaniya ilə İran arasındakı əlaqənin dekommunizasiyasından bəhs edən gizli protokol aldılar. Çox güman ki, Talat zərurətdən üstün idi, çünki o, Bolqarıstanın hərbi vəziyyətini və yaxınlaşan çöküşünü tam dərk etmiş, yuxarıda qeyd olunan protokolu imzalamış, bu da Türk siyasətinin Azərbaycanda tam dəyişməsi demək idi. Hazırda dörd diviziyanın İstanbula köçürülməsi barədə əmr aldığı məlumdur; Digər tərəfdən, Bakını ələ keçirən və Euzelini təmizləmək əmri alan Qoşunların bir hissəsi bu əmrlərə qarşı çıxdı. Yuxarıdakı dörd bölmədən biri, 6-cı. paraqrafda göstərildiyi kimi, o vaxtdan bəri dayandırma əmri aldı.

5. Digər tərəfdən, Ənvərin Nuriyə göndərdiyi 12 oktyabr teleqramında deyilirdi ki, Türklər Rusları və erməniləri hələ də Azərbaycanda güclü olduqları müddətdə bu ölkədən qovmalıdırlar.* Bu, xüsusilə Lənkəran və Astara rayonlarına aid idi, çünki Türkiyə sərhədinin Azərbaycan sərhədi ilə birləşməsinə mane ola biləcək hər hansı manеələrin aradan qaldırılması lazım idi. Yuxarıda göstərilənlərdən və digər dəlillərdən aydın olur ki, Türklər Azərbaycanda, o cümlədən İran Azərbaycanında möhkəmlənmək və onu saxlamaq niyyətində idilər. Bunu onların Türklərlə məhdudlaşan Yeni Ermənistan sərhədlərindən kənarda müstəqil rabitə xəttinin yaradılması və Qarabağda ermənilərə qarşı əməliyyatlar üçün qoşunların cəlb edilməsi əmri sübut edir.

6. Ənvərin qohumlarının Azərbaycanda toplaşdığını bilmək və orada xidmət etmək üçün partizan zabitlərinin seçilməsi və Türkiyədən digər zabitlərin

göndərilməsi üçün tədbirlər görmək də vacibdir. Türklərin bu müharibə zamanı Azərbaycanı ilhaq edəcəyini gözləmək mümkün deyil və müntəzəm qoşunlarını boşaltdıqları görünsə də, sülhdən əvvəl ermənilərі məhv etməyi və xalqların öz müqəddəratını təyinetmə müdafiəsi ilə mövqelərini möhkəmləndirməyi ümid edən bir qrup Ənvər tərəfdarını tutmağı planlaşdırdıqları ehtimalı olmasa da, çətin görünür.

* - Ancaq Bakıda Azərbaycanın Ruslara qarşı mövqeyi barışdırıcı görünür, ermənilərə qarşı şiddətli düşmənçilik var, onlardan 15.000-i şəhəri ələ keçirdikdən sonra öldürüldüyü bildirilir.

Fars vəliəhdinin Təbrizdə imzaladığı bu yaxınlarda iki Azərbaycanın birləşməli olduğu və oktyabrın 17-də Konstantinopola (İstanbula) göndərilən 5-ci Qafqaz diviziyasının Azərbaycanda qalmaq və lazım gələrsə, Azərbaycan hökumətinə tabe olmaq üçün əks əmr alması faktı bu nəzəriyyəyə əlavə rəng verir.təxminən 9000 nəfərlik milli qüvvələrin sentyabr ayının sonunda tam təşkil olunmadığı bildirildi. Nuri Paşa oktyabrın əvvəlində Şimali Qafqaza səfər etməli idi və Türklərin Azərbaycan İttifaqına və Qafqaz dağlıları İttifaqına müstəqil dövlət kimi çıxış etməyə daha qadir və onların təbliğatının güclü mərkəzi kimi müsbət yanaşdıqları məlum olduğundan, çox güman ki, Dərbənd yaxınlığında Biçarakova qarşı əməliyyatlar aparmaqla yanaşı, bunun üçün də çalışırlar.

7. Türklər 18 oktyabr tarixinə qədər atəşkəs əldə etməyi düşündükləri zaman ermənilərə münasibətlərini bir qədər dəyişdirmiş kimi görünür, çünki o gün Ənvər heç bir Türk ordusunun Ermənistan ərazisinə, xüsusən də Qarabağa girməməsi və Türk komandirlərinin ermənilər arasındakı mübahisələrdə heç bir iştirak etməməsi barədə əmr verdi. Bəlkə də bu bir hiylə idi, eyni zamanda Türklərin erməniləri Alman tərəfdarı olan gürcülərə qarşı qaldırmaq niyyətində olduqları və əvvəlcə Tatarların sonrakı fəthləri üçün kompensasiya ola biləcək mübahisəli bir bölgə təmin etdikləri bildirilir.

Bu arada türklərin Fars Azərbaycanını boşaltması nəticəsində Təbriz və Tehrandakı almanlar gediş-gəlişini*, alman qoşunları isə Qafqazdan çəkilmək ərəfəsindədirlər. Lakin Almaniyadan Təbrizdə konsul vəzifəsini yerinə yetirmək üçün yola düşən Litten hələ də səyahətini davam etdirir və Fon Kress və Alman mülki heyəti, ehtimal ki, 500 nəfərlik mühafizəçi ilə mümkün qədər uzun müddət qalmalıdırlar. fon Kress xahiş etmişdi ki, Almaniyanın nüfuzunu qorumaq və ermənilərin və gürcülərin təcili tələblərini təmin etmək üçün daha çox sayda qoşun saxlanılmalıdır [7/s.1].

8. Bundan əlavə, 23 oktyabrda Türk Baş Komandanlığı, Brest-Litva sərhədindən kənarda olan İran və Qafqazın (yəni Qars, Ərdahan və Batumi bölgələri) boşaldılmasını qətiyyətlə əmr etdi və Şərq ordu qrupu rəsmi olaraq ləğv edildi, lakin Türklər ermənilərin, xüsusən də Andranikin hərəkətlərindən narahat idilər, çünki ermənilər indiki sərhədləri daxilində qalmağa və hər hansı bir düşmən hərəkətindən çəkinməyə məcbur oldular. Onlara tədbir görməmələri barədə xəbərdarlıq edildi.

Bu arada, İran Azərbaycanının Türkiyə tərəfindən təxliyəsi nəticəsində Təbriz və Tehrandakı almanlar dekommunizasiyanı gözləyirlər*, alman qoşunları isə Qafqazdan geri çəkilməyə hazırlaşırlar. Bununla birlikdə, Almaniyadan Təbrizdə konsulluq vəzifəsini tutmaq üçün yola çıxan Litten, səyahətini davam etdirir və Von Kress və Alman mülki işçiləri, ehtimal ki, 500 nəfərlik mühafizə korpusunda mümkün qədər uzun müddət qalacaqlar, baxmayaraq ki Von Kress Almaniyanın nüfuzunu qorumaq və ermənilərin və gürcülərin təcili ehtiyaclarını ödəmək üçün daha çox əsgərin işə götürülməsini istədi.

9. Bununla birlikdə, 6-cı paraqraf 5 ci bənddə göstərilən Qafqaz diviziyasının geri çəkilməsinə dair heç bir işarə yoxdur və Türklərlə bağlı ümumi bir nəticə budur ki, Ənvər tərəfdarları ingilislərin fars bitərəfliyi əsasında farsdan təxliyəsini təmin etməyə çalışır, eyni zamanda təhlükəsizliyi təmin etmək üçün gözəgörünməz "Ənvərçi" nüvəsini qoruyur. "Öz müqəddəratını təyin edən" ^ Azərbaycan üzərində nəzarət, beləliklə gələcək üçün Panturan və ya ümumi İslam fəaliyyətinin güclü və yaxşı yerləşdirilmiş mərkəzini təmin edir.

10. Almanlara gəldikdə, onların əsas məqsədi Gürcüstanda kredit verdikləri və Gürcüstanın xarici işlər naziri Çxenkeli öz agentliyi vasitəsi ilə fəaliyyət göstərən von Kressin fəaliyyəti sayəsində əhəmiyyətli siyasi uğurlar qazandıqları bir nəzarət payı qurmaqdadır. Bu siyasət Bakı üzərində nəzarəti nəzərdə tutur və bildiyiniz kimi, bu yaxınlarda almanlar oraya ekspert qrupu, eləcə də konsul göndəriblər.Türklərin Azərbaycandan rəsmi şəkildə getməsi ilə əlaqədar yəqin ki, rahatlıq tapsalar da, çox güman ki, onların maliyyə maraqları Ənvər və onun qohumlarının maraqları ilə üst-üstə düşür, çünki Ənvərin Almaniyada saxlanıldığı məlumdur. Ancaq bu məqam dəstəkləyici dəlillər tələb edir.

11. Ümumi nəticə ondan ibarətdir ki, Türklər Azərbaycanda, Almanlar isə Gürcüstanda öz müqəddəratını təyin etməyə iddialıdırlar və əgər sülh konfransında bu plana diqqətlə əməl olunmasa, gələcəkdə Xəzər regionunda ciddi hərbi öhdəliklərlə üzləşə bilərik.

* - Oktyabrın 26-da Təbrizdəki Alman konsulu Vustrovun lazım olduqda arxivlərlə Tbilisiyə getməsinə icazə verildi. Sentyabrın 24-də Tehrandakı Sommer Berlinə Almaniyanın İrandakı maraqlarını qorumaq üçün Madridə yaxınlaşmağı təklif etdi.

^ - Ancaq qeyd etmək olar ki, Türk tabeçiliyində olanlar, xüsusən İran Azərbaycanı vəziyyətində özlərini mümkün qədər repressiv göstərdilər. Digər tərəfdən, Azərbaycan əhalisinin 80 faizi savadsızdır.

> - Qeyd etmək lazımdır ki, Solf Von Kress-ə 16 oktyabr tarixli bir teleqramda almanların evakuasiya ilə əlaqədar Prezident Vilson ilə yarı yolda görüşmək məcburiyyətində qaldıqlarını, əks halda sülh təkliflərinin rədd ediləcəyini bildirdi; evakuasiyanın həm Şərqə, həm də Qərbə aid olduğu aydın deyil, lakin Von Kress mümkünsə Gürcüstan hökumətini almanların geri çəkilməsinə qarşı çıxmağa inandırmalıdır. Türkiyənin narahatlıqları, Tehrandakı ingilis və Amerika nazirlərinin Azərbaycandan və Şimali Qafqazdan gələ biləcək tanınma tələbləri ilə bağlı narahatlıqları ilə də təsdiqlənir.

ORDU BAŞ QƏRARGAHI
DÖYÜŞ BÜROSU (İmza və möhür var).
31 Oktyabr, 1918-ci il. [8/s.2]

**Nəticə.**Azərbaycan Xalq Cümhuriyyətinin qurulması zamanı baş verən hadisələr geniş şəkildə ələ alınmış, Sentrokaspi Diktaturası dövrü analiz edilmiş və ingilislərin Bakı üçün qurduğu planlara apardığımız arxiv araşdırmalarına və Bakı ilə Londra arasında keçən tapılmış gizli kəşfiyyat yazışmalarına əsaslanaraq yeni bir bucaqdan yanaşılmışdır. Bu məqalə Londonda saxlanılan arxiv materiallarının ilk dəfə təqdim olunmasıyla elmə yenilik gətirməsiylə xüsusi əhəmiyyət kəsb edir.

Bakıda 26 Bakı Komissarını həbs edən İngilis Ordu Qərargahı buranı daim nəzarətdə saxlamaq istəmiş, Osmanlı Ordusu Bakını işğaldan necə azad etməsi, Bakıda siyasi –ictimai vəziyyəti analiz edəən ingilis ordusu gizlicə Londona analitik məxvi teleqraf məktubları göndərmişdir. Böyük ehtimaldır ki Osmanlı Dövlətində Hərbiyyə Naziri olmuş Ənvər Paşanın bu dövrdə əl silahı istehsal edən silahlarla dolu zavod açmasından ingilislər çəkinmiş və Bakını tərk etmişdilər. Çünki Ənvər Paşa və onun qardaşı Qafqaz Ordusu Komandanı Nuri Paşa dan analitik təhlillər verən materiallarda Türklərin artıq Bakıda Rəsulzadə ilə birlikdə döyünən ürək olduğunu sənədlərdə vurğulamışdılar. İlk dəfə ingilis arxivi ilə yazışmalarımızla əldə etdiyimiz bu məxvi sənədlər Qafqazdakı siyasi-ictimai vəziyyət haqqında dolğun məlumat verən ilk dəfə araştırılan sənədlər olması ilə ölkəmizdə elmə yenilik gətirmişdir.

**Ədəbiyyat:**

1. 2018-ci ilin Azərbaycan Respublikasında "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 10 yanvar 2018-ci il.

2. İsgəndərov, A. (2014). *Azərbaycan Xalq Cümhuriyyətinin 95 illiyinə həsr edilmiş Respublika elmi konfransının materialları*, Bakı, s.3.

3. Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 16 may 2017-ci il.

4. Quliyev, M.(2014). *Azərbaycan Xalq Cümhuriyyətinin 95 illiyinə həsr edilmiş Respublika elmi konfransının materialları*, Bakı, s.43-49.

5. Mahmudov, Y(2004). *Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası*, (I Cild). Bakı: Lider Nəşriyyatı.

6. Yaqublu, N.(2003). *Məmməd Əmin Rəsulzadə Ensiklopediyası*, Bakı: Kitab Klubu Nəşriyyatı.

7. Böyük Britaniya Milli Arxivlər İdarəsi, Afrika və Asiya Araştırmaları Departamenti(BL), İngiltərənin Hindistan Ordu Ofisinin Hökümətə Göndərdiyi Məxvi Materiallar Bölməsi. Arxiv Qutu, Kod və Yeri : IOR/L/PS/18/C190 (r).(p.1).

8. Böyük Britaniya Milli Arxivlər İdarəsi, Afrika və Asiya Araştırmaları Departamenti(BL), İngiltərənin Hindistan Ordu Ofisinin Hökümətə Göndərdiyi Məxvi Materiallar Bölməsi. Arxiv Qutu, Kod və Yeri : IOR/L/PS/18/C190 (v). (p.2).

*Şəkil-1.*



*Şəkil -2.*



***Rəyçi: Prof.Dr. Şahingöz M.***